## Aybeniz Garagile Qafarlı

### Kövrək Şair

Xəyalı göylərdə gəzib də yazır,
Əlini sevgidən üzüb də yazır,
Ürəyin ovcunda əzib də yazır,
Bəlkə də bir kövrək şairdi bu qız.

Düzüb gözlərinin yaşın vərəqə,
Tökübdü başının daşın vərəqə,
Köçürüb ömrünün qışın vərəqə,
Bəlkə də bir kövrək şairdi bu qız.

Həsrəti çiyninin yükü olubdu,
Dərd-ələm əlindən elə solubdu,
Buludtək qaralıb yenə dolubdu,
Bəlkə də bir kövrək şairdi bu qız.

Ömrünü yollara calayıb yazır,
Köksündə bir ocaq qalayıb yazır,
Dərdini boynuna dolayıb yazır,
Bəlkə də bir kövrək şairdi bu qız.

Bəxtinə rənglərin qarası düşüb,
Canına Şuşanın yarası düşüb,
Məmləkət bölünüb, parası düşüb,
Bəlkə də bir kövrək şairdi bu qız.

Yığıb, boğçalayıb sözünü yenə,
Torpağa söykəyib üzünü yenə,
Ölsə də deyəcək düzünü yenə,
Bəlkə də bir kövrək şairdi bu qız.